Qədəri inkar edənlərə cavab

Qədər məsələsi həmişə gündəmdə olur. Qurani Kərimdə və hədislərdə Qədər haqqında kifayət qədər ayələr, hədislər var. Təəssüf edirik ki, Mustafa İslamoğlu kimi gözəl danışığı var deyərək iddia etdikləri şəxslər qədəri inkar edirlər. İnsan Quran oxuyur, hədisləri oxuyur, ancaq qədəri inkar edir. Qədəri inkar edənlər artıq islamdan çıxıblar. Ümumiyyətlə biri var insan cahil olsun, cahili, yəni dində elmi olmayanı biz qınamırıq. Onu elmlə, dəlillə, sübutla, Quran və hədislərdə olan mətinlə elmi şəkildə başa salırıq ki, qədər var, qədərə iman vacibdir. Ancaq artıq bunu başa düşərək qəsdən qədəri inkar edirsə bu insan kafir ola bilər. İnsan ehtiyatlı olmalıdır. Qədərlə bağlı yazdıqlarımı oxuyub faydalanın. Quranda və hədislərdə qədərlə bağlı məsələləri yadda saxlayın. Ehtiyatlı olun ki, qədər məsələsində şübhəyə düşməyəsiniz. Bu səbəbdən gəlin qədəri düzgün anlayaq!

Qədər iki cürdür. Biri dəyişməz qədər, yəni qismət, alın yazısı, nəsib olan, burada dəyişmə yoxdur. İkincisi dəyişən qədər, yəni müvəqqəti qədər, məchul olan, aqibəti bəlli olmayan qədər. Buna nədənsə asılı olan qədər də demək olar. Həmçinin bunu bilmək lazımdır ki, Allah bu qədərləri dəf edən səbəblər qoymuşdur. Buna misal olaraq: dua, sədəqə, dərmanlar, maşına minərkən ehtiyat kəmərini bağlamaq və s. Bunların hamısı Allahın qəza və qədərindəndir, hətta acizlik və gözüaçıqlıq. Bəzən qədər dua etməklə dəyişə bilir, bu məhz qədərin ikinci növünə aid olan qədər, dəyişən qədər, məchul qədər, aqibəti sənin əməllərindən asılı olan qədərdir. Artıq Allah təalaya tövbə edib bağşlanmaq istəmək, namaz qılmaq, oruc tutmaq, buna bənzər saleh əməllər etməklə uca Allah insanı yüksəldir, çünki insanın etdiyi yaxşı əməllər Allaha yüksəlir, bu əməllərdən uca Allah razı qalır və insanın dərəcəsini yüksəldir. Onun qədərini xeyirə doğru dəyişir.

Qədərə iman haqqında aşağıdakı ayələr vardır:

17 - Əgər Allah sənə bir sıxıntı versə, (səni ondan) Allahdan başqa heç kəs qurtara bilməz. Əgər (Allah) sənə bir xeyir yetirsə (heç kəs Ona mane ola bilməz). Çünki O, hər şeyə qadirdir!

18 - O Öz qulları üzərində hakimi-mütləqdir. O, hikmət sahibidir, (hər şeydən) xəbərdardır! (Ənam 17-18)

67 - Hər bir xəbərin (Quranda sizə xəbər verdiyim əzabın Allah tərəfindən təqdir olunmuş) müəyyən bir vaxtı vardır və siz (onu) biləcəksiniz) (Ənam 67).

67 - Gecəni dincəlməyiniz üçün (qaranlıq), gündüzü (çalışıb ruzi qazanmağınız üçün) işıqlı edən Odur. Həqiqətən, bunda (Allah kəlamını) eşidənlər üçün (ibrətamiz) dəlillər vardır. (Yunus 67).

11 - (İnsan üçün) onu öndən və arxadan təqib edənlər (mələklər) vardır. Onu (insanı) Allahın əmri ilə qoruyurlar. Hər hansı bir tayfa öz tövrünü (nəfsində olanları) dəyişmədikcə (pozmadıqca), Allah da onun tövrünü (onda olanları, onun əhvalını) dəyişməz. Əgər Allah hər hansı bir qövmə bir pislik yetirmək istəsə, onun qarşısı heç cür alına biməz və Ondan başqa onların heç bir hamisi də olmaz. (Rəd surəsi 11)

Allah təala hər şeyi bir qədərlə yaratmışdır:

2 - O Allah ki, göylərin və yerin hökmü (səltənəti) Onundur. O (Özünə) heç bir övlad götürməmişdir; mülkündə heç bir şəriki yoxdur. O, hər şeyi yaratmış və onu (onun nə cür olacağını) təqdir (əzəldən müəyyən) etmişdir (Furqan surəsi, 2).

38 - Allahın Peyğəmbərə vacib (halal) buyurduğu bir şeydə (Zeynəblə evlənməkdə) ona heç bir günah yoxdur. Daha öncə gəlib-getmiş (Davud, Süleyman və başqaları kimi) peyğəmbərlər barəsində də Allahın qayda-qanunu (sünnəsi) belədir. Allahın əmri əzəli hökmdür! (O, mütləq yerinə yetməlidir!) (Ehzab suresi 38).

49 - Şübhəsiz ki, Biz hər şeyi müəyyən ölçüdə (lazım olduğu qədər) yaratdıq. (Qemer suresi 49)

3 - Və ona gözləmədiyi yerdən ruzi verər. Kim Allaha təvəkkül etsə, (Allah) ona kifayət edər. Allah Öz əmrini yerinə yetirəndir. Allah hər şey üçün bir ölçü (hədd, müddət) təyin etmişdir. (Talaq 3).

Qədərlə bağlı ayələr çoxdur və bununla kifayətlənirəm.

1) Qədərin tərifi və ona iman gətirməyin əhəmiyyəti.

Qədər: Allahın Öz əzəli elmi və hikməti ilə kainatın qədərini yazmasıdır. Bu, Allahın qüdrəti, Onun hər şeyə qadir olması və istədiyini etməsi əsasındandır.

Qədərə iman, Allah sübhənəhu və təalənin rübubiyyətinə imandandır. O, imanın əsaslarından biridir. Onsuz iman doğru olmaz. Allah təalə buyurur: "Şübhəsiz ki, Biz hər şeyi (öncədən yazılmış) qədər ilə yaratdıq" (əl-Qəmər/49).

Peyğəmbər ona Allahın salavatı və salamı olsun demişdir: "Hər bir şey qədərlədir, hətta acizlik və gözüaçıqlıq" (Müslüm rəvayət etmişdir).

2) Qədərin mərtəbələri:

Qədərə iman onun dörd mərtəbəsini tamamlamadan yerinə yetməz, bunlar:

Birinci: Allahın hər şeyi əhatə etmiş əzəli elminə iman gətirmək. Allah təala buyurur: "(Ya Rəsulum!) Məgər bilmirsənmi ki, Allah göydə və yerdə nə varsa, hamısını bilir? Həqiqətən, bu, (lövhi-məhfuz deyilən) bir kitabdadır. Şübhəsiz ki, bu (bütün bunları bilmək), Allah üçün asandır!" (əl-Həcc/70).

İkinci: Allahın bu qədəri lövhi Məhfuzda yazmasına iman gətirmək. Allah təala buyurur: "Biz kitabda heç bir şeyi nəzərdən qaçırmadıq (əksiltmədik)" (əl-Ənam/38).

Peyğəmbər ona Allahın salavatı və salamı olsun buyurmuşdur: "Allah məxluqatın qədərini, göyləri və yeri yaratmasından əlli min il öncə yazmışdır" (Müslüm rəvayət etmişdir).

Üçüncü: Allahın yerinə yetən istəyinə və şamil qüdrətinə iman gətirmək. Allah təala buyurur: "(Onu da bilin ki,) aləmlərin Rəbbi olan Allah istəməsə, siz (bunu) istəyə bilməzsiniz! (siz insanlar həmişə Allahın qüdrəti, hökmü və iradəsi altındasınız. O sizə bir şeyi istəməyincə siz onu özünüzə istəyə bilməzsiniz. Ona görə də hər işdə Allaha təvəkkül edin!)" (ət-Təkvir/29).

Peyğəmbərə ona Allahın salavatı və salamı olsun "Allah və sən istəsən" deyənə cavab olaraq belə buyurmuşdur: "Məni Allaha ortaq etdinmi?! Əksinə (belə söylə), yalnız Allah Özü istəsə" (Əhməd rəvayət etmişdir).

Dördüncü: Allah hər şeyin xaliqi olduğuna iman gətirmək. Allah təala buyurur: "Allah hər şeyin xaliqidir. O, hər şeyə vəkildir!" (əz-Zümər/62).

Allah təalə buyurur: "Halbuki sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır!" (əs-Saffat/96).

Peyğəmbər ona Allahın salavatı və salamı olsun buyurmuşdur: "Allah hər bir düzəldəni və onun düzəltdiyini yaradır" (Buxari rəvayət etmişdir).

3) Qədərin qismləri:

a. Bütün yaradılmışlar üçün olan ümumi qədər: göylər və yer yaradılmadan əlli min il öncə Lövhi Məhfuzda yazılmış qədərdir.

b. Ömrü qədər: bəndəyə ruh üfürülən zamandan əcəli çatana qədər baş verənlərin təqdiridir.

c. İllik qədər: hər il baş verənlərin təqdiridir. O, hər il (Ramazan ayında olan) Qədr gecəsində yazılır. Allah təalə buyurur: ???Hər bir hikmətli (yaxud dəyişilməsi mümkün olmayan) iş o gecə hökm (ayırd) olunur??? (əd-Duxan/4).

d. Gündəlik qədər: hər gün baş verən: ucalıq, alçaqlıq, əliaçıqlıq, qadağa, doğulmaq, öldürmək və s-nin təqdiridir. Allah təalə buyurur: ???Göylərdə və yerdə kim varsa, hamısı Ondan (ruzi, mərhəmət və mədəd) diləyir. O hər gün (hər an) bir işdədir (birini öldürər, birini dirildər; acizə kömək edər; birinin duasını qəbul edər; birinə mərhəmət əta edib digərinə cəza verər. Bir işlə məşğul olmaq Onu digərindən yayındırmaz)??? (ər-Rəhman/29).

4) Sələfilərin qədərə etiqadı:

Allah hər bir şeyin Xaliqi, Rəbbi və Sahibidir. O, məxluqati yaratmadan öncə onların qədərini: əcəllərini, ruzilərini, əməllərini, xoşbəx və ya bətbəxt

olacaqlarını, bir sözlə hər şeyi açıq-aydın kitabda (Lövhi Məhfuzda) yazmışdır. Allahın istədiyi olar, istəmədiyi isə olmaz. O, olanları, olmayanları, olacaqları və olsaydı necə olacaqdı bütün bunları bilir. Allah hər şeyə qadirdir. İstədiyini doğru yola yönəldər, istədiyini də haqq yoldan azdırar. Bəndələrin istəyi və bacarığı vardır. Bununla da onlar, Allahın onlara verdiyi bacarıq çərçivəsində istədiklərini edərlər. Amma bununla belə etiqad edirlər ki, əgər bir işin görülməsini Allah istəməsə, bunu bəndə də istəyə bilməz. Allah təalə buyurur: ???Bizim uğrumuzda cihad edənləri öz yollarımıza (Bizə tərəf gətirib çıxaran behişt yollarına) qovuşduracağıq??? (əl-Ənkəbut/69).

Allah təalə bəndələri və onların əməllərini yaratmış, onlar da bu əməllərin həqiqi icraçılarıdır. Heç kəsin etmədiyi vacibə və ya etdiyi harama görə Allaha qarşı bir hüccəti (dəlili) yoxdur, əksinə Allahın qulları üzərində əsaslı hüccəti vardır. Qədəri, eyibli işlərə və günahlara deyil, baş verən müsibətlərə dəlil gətirmək olar. Necə ki, Peyğəmbər ona Allahın salavatı və salamı olsun Musanın Adəmlə münazirəsi haqqında buyurmuşdur: "Adəm ilə Musa mübahisə etdilər. Musa dedi: Sən o Adəmsən ki, günahın səni cənnətdən çıxartdı. Adəm isə ona: Sən, Allahın Öz risaləsi və kəlamı ilə ixtiyar etdiyi Musasan, indi də mən yaradılmadan öncə qədərimə yazılmış işə görə məni qınayırsan?! deyərək: Adəm Musaya qalib gəlir" (Müslüm rəvayət etmişdir).

5) Bəndələrin felləri:

Bu kainatda Allahın yaratdığı fellər iki qismə bölünür:

Birinci: Allahın məxluqata etdiyi fellərində heç kəsin istəyi və ixtiyarı yoxdur, istək yalnız Allahındır. Buna: diriltmək, öldürmək, xəstələndirmək və sağaltmaq nümənədir. Allah təalə buyurur: ???Halbuki sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır!??? (əs-Saffat/96).

Allah təalə buyurur: ???Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq (bəlli etmək) üçün ölümü və həyatı yaradan Odur??? (əl-Mulk/2).

İkinci: İstəyi olan hər bir məxluqun etdiyi fellər. Bu cür fellər failin ixtiyarı və istəyi ilə olur. Çünki, Allah bunu onların ixtiyarına buraxmışdır. Allah təalə buyurur: ???Eləcə də sizdən doğru-düz (yolda) olmaq istəyənlər üçün??? (ət-Təkvir/28).

Allah təalə buyurur: ???Kim istəyir inansın, kim də istəyir inanmasın (kafir olsun)??? (əl-Kəhf/29).

Onlar etdikləri bu fellərin yaxşısına görə təşəkkür, pisinə görə isə məzəmmət olunurlar. Allah, yalnız bəndənin ixtiyarı olan fellərə görə onu cəzalandırır. Bu haqda Allah təalə buyurmuşdur: ???Mən bəndələrə (səbəbsiz yerə) zülm edən deyiləm!??? (Qaf/29).

İnsan ixtiyar və zərurət arasında olan fərqi bilir. Məsələn: onun, öz ixtiyari ilə evin damından nərdivanla enməsi, başqasının onu evin damından aşağı atması arasındakı fərq, birinci etdiyi fel ixtiyari, ikinci isə icbaridir.

6) Allahın yaratmasını və bəndənin felini bir araya cəm etmək.

Allah bəndəni və onun fellərini yaratmış, ona istək və iradə vermişdir. Bəndə öz felinin həqiqi faili və yerinə yetirənidir. Çünki, onun iradəsi və bacarığı vardır. Bəndə iman gətirərsə deməli bu onun iradəsi və istəyi ilə, küfr edərsə özünün tam iradəsi və istəyi ilə kafir olar. Necə ki biz, bu meyvə bu ağacdandır deyirik. Yəni meyvə ağacdan hasil olub Allah isə onu yaratmışdır. Meyvənin ağacdan hasil olması ilə Allahın bunu yaratması arasında heç bir ziddiyət yoxdur. Bununla da Allahın şəriəti və qədəri bir araya gəlir. Allah təalə buyurur: ???Halbuki sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır!??? (əs-Saffat/96).

Allah təalə buyurur: ???Kim (malını Allah yolunda) versə, (Allahdan) qorxsa və ən gözəl sözü (la ilahə illəllah kəlməsini) təsdiq etsə, Biz ona Cənnəti müyəssər edəcəyik! Amma kim (malını Allah yolunda xərcləməyə) xəsislik etsə, (mal-

dövlətinə güvənib Allaha) möhtac olmadığını sansa, Biz onu Cəhənnəm üçün hazırlayacağıq!??? (əl-Leyl/5-10).

7) Qədərdə bəndənin üzərinə düşən vacib:

Qədərdə bəndənin üzərinə düşən vacib ikidir:

Birinci: Əmr olunanı yerinə yetirməkdə və qadağan olunandan çəkinməkdə Allahdan kömək diləməli, asanlıqları əldə etmək və çətinlikləri uzaqlaşdırmaq üçün Allaha dua, təvəkkül etməli və Ona sığınmalı, xeyri cəlb və şəri dəf etməkdə Allaha ehtiyaclı olmalıdır. Peyğəmbər ona Allahın salavatı və salamı olsun buyurmuşdur: "Sənə fayda verən şeylərə həris ol, Allaha sığın və acizlik etmə. Sənə bir şey baş verdiyi zaman əgər belə etsəydim belə olardı demə, lakin: Allahın qədəridir və O istədiyini edir belə söylə. Çünki, əgər demək şeytan qapısı açır."

İkinci: İnsan onun qədərinə yazılmış şeyə səbr etməli və təlaşa düşməməlidir. Bunun Allahdan olduğunu bilməli və onunla razılaşıb təslim olmalıdır. Bilməlidir ki, ona baş verəcək bir şey ondan yan keçməz və yan keçəcək bir şey də ona baş verməz. Peyğəmbər ona Allahın salavatı və salamı olsun buyurmuşdur: "Bil ki, sənə baş verəcək bir şey səndən yan keçməz və səndən yan keçəcək bir şey sənə baş verməz."

8) Qəza və qədərlə razılaşmaq:

Qəza və qədərlə razılaşmaq lazımdır. Çünki, bu Allahın rübubiyyətinə olan razılığın tamamıdır. Hər bir mömin Allahın qəza və qədəri ilə razılaşmalıdır. Ona görə ki, Allahın etdiyi iş və qəza hamısı xeyir, adillik və hikmətdir. Kimin nəfsi, ona baş verənin ondan yan keçməməsi və ondan yan keçən şeyin də ona baş verməməsinə iman edərsə: nəfsi heyrətdən və tərəddüddən azad, həyatından iztirab və qorxu yox olar, itirdiyi şeyə həzin olmaz, gələcəyindən qorxmaz. Beləliklə də, halına, rahat nəfsinə və sakit könlünə görə inasanların ən xoşbəxti olar. Əgər bir kəs, əcəlinin məhdud, ruzisinin müəyyən olduğunu, qorxu onun həyatını, paxıllıq

isə ruzisini artırmamasını və bunların hamısının əzəldən onun qədərinə yazılmasını bilərsə, ona baş verən müsibətlərə səbr, günahlara və eyiblərə görə tövbə edər, Allahın qədəri ilə razılaşar və bununla da əmrlərə itaət və müsibətlərə səbr etməyi bir araya cəm edər. Allah təalə buyurur: ???Allahın izni olmadıqca (heç kəsə) heç bir müsibət üz verməz. Kim Allaha iman gətirsə, Allah onun qəlbini haqqa doğru yönəldər və o, dünyada baş verən hər şeyin Allahın əzəli hökmü və izni ilə olduğunu bilər. Allah hər şeyi (keçmişi, indini və gələcəyi) biləndir!??? (ət-Təğabun/11).

Allah təalə buyurur: ???(Ya Peyğəmbər! Allahın əmrinə, müşriklərin əziyyətinə) səbr et, Allahın (sənə və möminlərə verdiyi zəfər) vədi haqdır. Günahının (ümmətinin sənin özünə aid etdiyin günahının) bağışlanmasını dilə??? (əl-Ğafir/55).

9) Hidayət iki növdür:

Birinci: Bütün məxluqat üçün haqqi və doğru yolu göstərən hidayət. Bu, peyğəmbərlərin və onların tərəfdarlarının bacardıqları işdir. Allah təalə buyurur: ???Sən (onunla insanları) düz yola yönəldirsən (İslam dininə dəvət edib haqqa qovuşdurursan)??? (əş-Şura/52).

İkinci: Allahdan başqa heç kəsin qadir olmadığı tovfiq və təsbit hidayəti. Bu, Allahın müttəqi bəndələrinə minnəti və fəzilətdir. Allah təalə buyurur: ???(Ya Məhəmməd!) Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah ilədiyini doğru yola salar??? (əl-Qəsəs/56).

10) İradə Allahın kitabında iki növdür.

Birinci: Kövni və qədəri iradə. O, Allahın mövcüd olan bütün şeylər üçün istədiyi iradədir. Allahın istədiyi olar, istəmədiyi isə olmaz. Bu iradədə, qəsd olunan bir işin həyata keçməsi labüddür, amma Allahın məhəbbət və razılığı isə labüd deyildir. Allahın məhəbbət və razılığı bu işin yalnız şərii iradə ilə bağlılığı zamanı

labüd olur. Allah təalə buyurur: ???Allah kimi düz yola yönəltmək istəsə, onun köksünü islam (dini) üçün açıb genişləndirər??? (əl-Ənam/125).

İkinci: Dini və şərii iradə. Bu, qəsd olunan işin və onu edənin Allah tərəfindən sevilməsi, ondan razı qalmasıdır. Bu iradədə qəsd olunan işin həyata keçməsi labüd deyildir. Bunun həyata keçməsinin labüdlüyü həmin işin kövni iradə ilə bağlı olduğu zaman olur. Allah təalə buyurur: ???Allah sizin üçün ağırlıq deyil, yüngüllük istər??? (əl-Bəqərə/185).

Kovni iradə daha əhatəedicidir. Çünki, həyata keçən hər bir şərii iş kovni iradə ilə qəsd olunub. Amma həyata keçən hər bir kovni iş şəriətlə qəsd olunmayıb. Məsələn: Əbu Bəkrin imanında həm kövni həm də şərii iradə vardır. Yalnız kövni iradə təhqiq olunana misal əbu Cəhlin küfrü, şəriətlə istənilən lakin həyata keçməyən kövni iradəyə misal əbu Cəhllin imanıdır. Allah asilikləri qədərə və kovnə görə istəyirsə, O, bunlardan din olaraq razı qalmır, sevmir və bunları əmr etmir. Əksinə, onlara nifrət və ikrah edir, bu işlərdən çəkindirir və onu edənləri əzabla qorxudur. Bütün bunlar Onun qədərindəndir.

Allah sübhənəhu və təalə iman və itaəti sevir, bunu əmr edir, onu edənlərə savab və gözəl mükafat vəd edir. Allahın iradəsi olmadan Ona asilik olmaz və Onun istədiyindən başqa bir şey həyata keçməz. Allah təalə buyurur: ???Amma bəndələrinin küfr etməsi Ona xoş getməz??? (əz-Zumər/7).

Allah təalə buyurur: ???(O şəxs səndən) ayrılan kimi yer üzündə fitnə-fəsad törətməyə, əkini və nəsli (islam cəmiyyətini məhv etməyə çalışar). Halbuki Allah fitnə-fəsadı sevməz!??? (əl-Bəqərə/205).

11) Qədəri dəf edən səbəblər.

Allah bu qədərləri dəf edən səbəblər qoymuşdur. Buna misal olaraq: dua, sədəqə, dərmanlar, maşına minərkən ehtiyat kəmərini bağlamaq və s. Bunların hamısı Allahın qəza və qədərindəndir, hətta acizlik və gözüaçıqlıq.

12) Qədər Allahın məxluqatdakı sirridir.

Qədər, Allahın məxluqatdakı sirridir demək qədərin gizli hissəsinə aiddir. Əşyaların həqiqətini Allahdan başqa heç kəs bilmir və bəşər övladı onları aşkar edə bilməz. Buna: Allahın bir kimsəni zəlalətə aparması və ya doğru yola yönəltməsi, diriltməsi və ya öldürməsi, bir şey əta etməsi və ya qadağan etməsi misaldır. Necə ki, Peyğəmbər ona Allahın salavatı və salamı olsun buyurmuşdur: "Qədərdən danışıldıqda susun" (Müslüm rəvayət etmişdir).

Amma qədərin başqa cəhətlərini: əzəmətli hikmətlərini, mərtəbələrini, dərəcələrini və əsər-əlamətini insanlara çatdırmaq və öyrətmək olar. Qədər imanın əsaslarından biri olduğu üçün onu öyrənmək və bilmək lazımdır. Necə ki, Peyğəmbər ona Allahın salavatı və salamı olsun Cəbrailə imanın əsaslarını sadaladıqdan sonra demişdir: "Bu Cəbraildir. Sizə dininizi öyrətmək üçün gəlmişdi" (Müslüm rəvayət etmişdir).

13) Qədəri dəlil gətirmək.

Allahın, gələcəkdə nə baş verəcəyi haqda olan elmi, bir qeybdir və bunu Ondan başqa heç kəs bilmir. Bu qeybi elm, mükəlləf olanlara məchuldur. Heç kəs Allahın qeybi elmi olan qədərlə etdiyi əmələ dəlil gətirə bilməz. Qəza-qədərdə yazılana arxayın olub əməli tərk etmək olmaz. Qədər, heç kəs üçün Allaha və Onun xəlqinə qarşı bir sübut ola bilməz. Əgər bir kimsə etdiyi pis işə görə qədəri dəlil gətirsəydi, bu zaman zalim cəzalanmaz, müşrik öldürülməz, cəza tətbiq olunmaz, heç kəs zülm etməkdən çəkinməzdi. Bu da, din və dünyada zərəri məlum olan fəsada səbəb olardı.

Qədəri dəlil gətirən insana deyirik ki, sən cənnət və ya cəhənnəm əhlindən olacağını bilmirsən. Əgər sən bunu bilsəydin sənə nə əmr nə də qadağa edərdik.

Bəzi səhabələr qədər haqqında hədislərini eşitdikdə belə deyərdilər: "Hal-hazırda məndən çox çalışa bilməzdin." Peyğəmbər ona Allahın salavatı və salamı olsun ondan qədəri dəlil gətirmək haqda soruşularkən demişdir: "Əməl edin, hər bir yaradılan yaradıldığı iş üçün müyəssər edilmişdir. Kim xoşbəxtlərdəndirsə xoşbəxtlərin əməlini etməyə, kim bədbəxtlərdəndirsə bədbəxtlərin əməlini etməyə müyəssər olunacaqdır." Sonra bu ayəni oxudu: ???Kim (malını Allah yolunda) versə, (Allahdan) qorxsa və ən gözəl sözü (la ilahə illəllah kəlməsini) təsdiq etsə, Biz ona Cənnəti müyəssər edəcəyik! Amma kim (malını Allah yolunda xərcləməyə) xəsislik etsə, (mal-dövlətinə güvənib Allaha) möhtac olmadığını sansa, Biz onu Cəhənnəm üçün hazırlayacağıq!??? (əl-Leyl/5-10).

14) Səbəblər götürmək.

Bəndəyə başına gələn işlər iki qismdir:

Birinci: Bəndənin qarşısını ala biləcəyi iş;

İkinci: Bəndənin qarşısını ala bilmədiyi iş;

Allah sübhənəhu və təalə müsibətlər baş vermədən öncə onları bilir. Müsibət çəkənin başına gələn bu müsibət Allahın bunu bilməsi ilə yox, onun olmasına təkan verən səbəblərlə olmuşdur. Dinin müsibəti dəf etmək üçün səbəb götürməyi buyurduğu halda, bəndə onu götürməkdə səhlənkarlıq edərsə, başına gələn müsibətə görə özü təqsirkardır. Əgər baş verən müsibətin qarşısını almaqda acız olarsa, bu zaman o, üzürlü hesab olunar.

Səbəb götürmək qədərə və təvəkkülə zidd deyil, əksinə onların bir hissəsidir. Lakin qədər baş verərsə onunla razılaşmaq və ona təslim olmaq lazımdır. Bu haqda Peyğəmbər ona Allahın salavatı və salamı olsun buyurmuşdur: "Allahın qədəridir. Allah istədiyini edər". Müsibət baş verməmdən öncə mükəlləf insan, səbəblər götürməli və qədəri qədərlə dəf etməlidir. Peyğəmbərlər Allah tərəfindən vəhy və mühafizə ilə müdafiə olunduqları halda, onları düşmənlərindən qoruyacaq səbəb və

vasitələrdən istifadə etmişlər. Təvəkkül edənlərin seyidi Peyğəmbərimiz ona Allahın salavatı və salamı olsun Rəbbinə olan güclü təvəkkülü ilə bərabər onu qoruyacaq səbəblər götürürdü. Bu haqda Allah təalə buyurur: ???(Ey möminlər!) Allahın düşmənini və öz düşməninizi qorxutmaq üçün bacardığınız qədər qüvvə və (cihad üçün bəslənilən) döyüş atları tədarük edin??? (əl-Ənfal/60).

Allah təalə buyurur: ???Yeri (yer kürəsini) sizə ram edən Odur. Onun qoynunda gəzin, Allahın ruzisindən yeyin. Axır dönüş də Onadır!??? (əl-Mulk/15).

Peyğəmbər ona Allahın salavatı və salamı olsun buyurmuşdur: "Güclü mömin zəif mömindən xeyirli və Allaha daha sevimlidir. Hər ikisində xeyir vardır. Sənə fayda verən şeylərə həris ol, Allaha sığın və acizlik etmə. Sənə bir şey baş verdiyi zaman, əgər belə etsəydim belə olardı demə! Lakin: Allahın qədəridir və O istədiyini edir, söylə! Çünki, əgər demək şeytan qapısını açır" (Müslüm rəvayət etmişdir).

15) Qədəri inkar edənin hökmü.

Qədəri inkar edən artıq şəriətin əsaslarından birini inkar etmiş olur və bununla da küfr edir. Bəzi sələflər Allah onlara rəhmət etsin demişlər: "Qədərilərlə (1*), elmlə münazirə edin. Onlar qədəri inkar etsələr küfr edər, yox əgər iqrar etsələr mübahisə olunarlar."

16) Qədərə imanın səmərələri.

Qəza və qədərə imanın, ümmətin və fərdin islah olunmasına səbəb olan gözəl səmərələri və təsirləri vardır, bunlar:

a. Onun səmərəsi, saleh ibadətlər və gözəl sifətlərdir. Buna: Allaha ixlas, təvəkkül, Ondan qorxu, rəca, Ona qarşı yaxşı zənn, səbr və güclü iradə, peşmançılıqla mübarizə, Allahdan razı qalmaq, Allahı verdiyi fəzilət və rəhmətə görə şükr və sevinclə tək tutmaq, Allah üçün təvazükar olmaq, təkəbbürlüyü və yekəxanalığı

tərk etmək kimi işləri misal göstərmək olar. Həmçinin qədərə iman, Allaha olan etimad nəticəsində: xeyirli işlərdə sədəqə vermək, şücaətli, qənaətli və izzət nəfsli, yüksək səy və işlərində ciddilik, rahat və çətin anlarda adillik, həsəd və narazıçılıqdan uzaq, ağılları xürafatlardan və batil şeylərdən təmizləmək, rahat nəfsli və qəlbli olmaq kimi səmərələr verir.

b. Qədərə iman gətirən, öz həyatında doğru yol tutur, nemətlər onu nankor, müsibətlər isə ümidsiz etmir. O yəqin olaraq bilir ki, başına gələn müsibət Allahın onun qədərinə yazdığı imtahandır. Bunun nəticəsində səbirsizlik etmir, əksinə səbirli olub savabını Allahdan istəyir.

c. O, daima doğru yol üzərində olmaq və yaxşı işləri çoxaltmaq, asilikdən və böyük günahlardan uzaq olmaq kimi səmərələr nəticəsində insanı zəlalətə düşməyin və həyatdan pis çıxmağın səbəblərindən qoruyur.

d. O, möminlərə çətinlikləri və müsibətləri dəf etmək üçün, səbəblər götürərək sabit qəlb və tam yəqin və s. səmərələr verir.

Peyğəmbər ona Allahın salavatı və salamı olsun buyurmuşdur: "Möminin həyatı çox qəribədir. Onun bütün işləri xeyirdir. Ona yaxşı iş baş verdikdə şükr edər və bu onun üçün xeyirli olar, ona pis iş baş verdikdə səbr edər, bu da onun üçün xeyirli olar. Bu yalnız mömin üçündür" (Müslüm rəvayət etmişdir).

(1*) Qədərilər - Qədəri inkar edən firqə

Əkrəm Həsənov